**Sevinc Abdulla qızı Abdullayeva** [63]

# DÖRD HEKAYƏ – İKİ PROBLEM

1960-90-cı illərin nasirləri "yazıçı və zaman" faktının bir xüsusiyyətini təsdiq edirdilər: əgər yazıçı qələmə aldığı həyatı, əsərinin bədii həyat marerialını əsaslı şəkildə bilmirsə, öyrənməyibsə, əgər yaratmaq istədiyi bədii obrazların ictimai həyatın tipik nümayəndələri olduğu mühitlə dərindən tanış deyilsə, o, nümunəvi əsər yarada bilməz. Bu fikir ədəbi ictimaiyyətə çoxdan bəlli olsa da, 60-cı illərin yeni tipik mənəvi-əxlaqi kamil insan axtarışları mərhələsi üçün çox vacib və zəruri idi. Çünki bu mərhələ, yəni yeni insan axtarışları mərhələsi həm keçmiş və dəbdə olan sosialist realizmi metodundan uzaqlaşmaq, imtina etmək, həm ədəbi proseslərin bağlanğıcı olan yeni ədəbiyy, həyata, yeni zamana yeni baxışlar mərhələsi, həm də yeni tələb və prinsiplərə arxalanmaq üçün yaranan yeni şəraitə baxışlar mərhələsi kimi çox vacib, zəruri idi. Həm də ona görə ki, sənətkarın dolaşıq düşmüş, qəsdən dəyişdirilmiş həyati, tarixi-ictimai münasibətləri yeni tələblər əhatəsində görməyə, müşahidə etməyə və müşahidələrini ümumiləşdirməyə, keçmiş baxışların nöqsan və ziddiyyətlərindən imtina etməsinə əsaslanan – söykənən "60-cılar" üçün çox vacib idi. Bu isə o demək idi ki, yeni mərhələ sifariş və göstərişlərdən imtina edən, həyatı, insanı olduğu kimi görən, təbliğ edən, tam "yeni insan və zaman" mərhələsi idi. Bu mərhələnin uğuru həm də onda idi ki, yaranan hər bir bədii əsər yalnız və yalnız konkret olanla mücərrəd olanın, obyektlə subyektin, mövzu ilə ideyanın vəhdətində yaranmalı, "həyat və bədii həqiqət" faktını təsdiq etməli idi. Xüsusilə yaradılan hər bir bədii obrazın daxili mahiyyətini üzə çıxaran zahiri xüsusiyyətləri, bilavasitə yeni insan axtarışları prinsiplərinin tələblərinə əsaslanmalı idi. Bu sənətkarlıq tələbləri əsasında yaranan nəsrimizin uğurları, həm də yeni nəsrin, yeni inkişaf prinsiplərinin əsaslarını göstərirdi. Yeni insan – tipik şərait – yeni münasibət və yeni zaman arzuları 60-cı illər ədəbi mərhələsinin əsas mahiyyətini təşkil edirdi. Bu mahiyyətin də aparıcı proseslərində vətəndaşlıq qüruru əsas yer tuturdu. Bu dövrdə İ.Muğanna, İ.Əfəndiyev, İ.Şıxlı, Mir Cəlal nəsrindən başlayan yaradıcılıq yolu Anar, Elçin, A.Babayev, S.Əhmədov və digər nasirlər tərəfindən uğurla davam və inkişaf etdirildi. İ.Məlikzadə, Ə.Cəfərzadə, F.Kərimzadə, M.Süleymanlının əsərləri bunu bir daha təsdiq etməkdədir.

Müasir Azərbaycan bədii nəsrinin inkişafında müstəsna xidmətləri olan nasirlərdən biri də Mövlud Süleymanlıdır. Bədii yaradıcılığa "60-cılar" adlanan nasirlərdən nisbətən gec başlasa da, XX əsrin bu adlı-sanlı ədəbi mərhələsinin xarakterini, ədəbi-bədii funksiyasını duymuş, onun tələb və prinsiplərini əsas yaradıcılıq vasitələrindən biri kimi qəbul etmiş, 60-cı illərin ustad sənətkarları səviyyəsində bədii nəsr nümunələri yaratmışdır.

M.Süleymanlının əsərlərini, xüsusilə "Şəhər toylarının səsi" (4) kitabını yenidən oxuyarkən onun əsl milli Azərbaycan – türk sənətkarı, müasir nasir olduğu şübhə doğurmadı. Əlbəttə, məqsədimiz bu ustad nasirin ədəbi-bədii irsini əsaslı şəkildə tədqiq etmək, araşdırmaq deyil. Bu, xüsusi, böyük tədqiqat işidir. Biz sadəcə olaraq, "bədii nəsr və sənətkar şəxsiyyəti" istiqamətində M.Süleymanlı əsərlərinin müasir zaman, mənəvi-əxlaqi kamillik kontekstində inkişaf etdiyini, öz bədii həllini tapdığını demək istəyirik. Bu məqsədlə də ədibin hekayələrindən dördünü ümumi təhlilə cəlb etdik.

M.Süleymanlının maraqlı əsərlərindən biri "Qar" hekayəsidir. Məlum olduğu kimi, qar təbiət hadisəsidir. Yazıçı hekayənin bütün bədii həyat materialını, xüsusilə ailə-məişət məsələlərini, insanlarını, təlim, tərbiyə, valideyn və övlad münasibətlərini bu qarın işığı ilə, təbiət və insan faktı, insan münasibətləri əhatəsində səciyyələndirir. Bir ailənin timsalında təlim-tərbiyə, ailə-məişət problemlərinə toxunur. Müsbət ideal kimi müqəddəs milli qanunları, sağlam tərbiyə normalarını müdafiə edir. Hekayədə bir ailə daxilində maraqlı obrazlar yaradılıb. Ata Murad, özündən otuz yaş kiçik olan arvadı Həlimə xanım, qızı Leyla, oğlu Rafiq və digər şəhər uşaqları, sürücü və s.

Ata Murad yüksək vəzifədə çalışır. Oğlunu da işə düzəldib. Ailənin bütün üzvləri xüsusi – şəxsi maşınlardan istifadə etdikləri üçün ictimai nəqliyyatın – avtobusların hərəkət istiqamətini bilmirlər. Qarlı gündə Muradın oğlu Rafiq nə qədər əlləşirsə, maşınını xoda sala bilmir. Anası ərinə deyir ki, bəlkə oğlu bu gün işə getməsin? Murad isə təkidlə getməli olduğunu bildirir. Çünki iş yerində yoxlama olacaq. Evdəkilərin isə heç biri, Muradın özü də avtobusların marşrutunu bilmir.

*"Murad telefona sarı getdi, nömrəni yığdı:*

- *Allo, yoldaş Səlim, sabahın xeyir.*
- *Ya Allah, Murad, nə əcəb sənnən?!..*
- *Bura bax, Rafiq işdən qalıb, bilmirsən oyannara hansı avtobus gedir, kəndçisən sən, deyirəm bəlkə biləsən?*
- *Sən öl, Murad, birinci dəfədi mənnən belə şey soruşurlar. Bilmirəm, canın üçün, yoxsa deyərdim"* (3, s. 405).

Bu minvalla Murad Fazilə və digər tanışlarına telefon açır, lakin heç kimdən müsbət cavab ala bilmir.

M.Süleymanlı təbiət hadisəsi ilə bir ailənin simasında cəmiyyətin tərbiyə üsulu – ümumən, məişət məsələləri ilə bağlı münasibətlərini sətiraltı yumor hissi ilə, kinayəli şəkildə bildirir. Ailə avtobusların hərəkət isiqamətini öyrənməkdə, qar da aramla yağmaqda davam edir.

"Yanğın" hekayəsi də mənəviyyat məsələlərinə həsr olunmuşdur. Xıdır kasıb kəndli balasıdır. Dükan açıb, varlanandan sonra "Necə deyərlər, gözü ayağının altını görmür". Arvadı Nuruş da özü kimi şöhrətpərəstdir. Pul gözlərini tutmuşdur. O qədər harınlamışlar ki, qonşularına da qənim kəsilmişlər. Maşını, ev-eşiyi, dükanı, geyim-

[63] BDU, Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru, sevincabasova@bsu.edu.az

keçimi yerli-yerindədir. Qonşu qadınlar Nuruşun yekəxanalığına dözə bilmirlər. Onunla üz-göz olurlar. Xıdırın qoca anası oğlunun, gəlininin hərəkətlərini yaxşı qəbul etmir. Bütün qonşular Xıdırı – arvadını qarğayırlar.

*"- Belə gözlərin çıxsın, ovcuna düşsün... a dilənçi, a tərəzi oğrusu. Yığ görüm, nə aparacaqsan dünyadan? Qandı yeməyin, qan, xəbərin yoxdu, xəbərdən.*

*Xıdırın arvadı söz tapa bilmirdi..."* (3, s. 410).

Xıdır və arvadı qonşulara daha pis təsir etmək üçün qarajda kabab çəkib, onlara acıq verirlər. Yeyib-içdikdən sonra evə qalxıb rahatlananda bilmirlər ki, manqalı söndürməyiblər, külək xəta törədər. Xıdırın qoca anasının gözünə yuxu getmir. Birdən qapı-pəncərələri alov bürüyür, yanğının evə daxil olduğunu görür, qışqırır, amma iş-işdən keçmişdi. Hər şey yanıb kül olmuşdu. *"Səhər Xıdır ayağını sürüyə-sürüyə gedib dükanı açdı, tərəzisini düzəltdi; yağ aldılar, yağdan kəsdi, kənd aldılar qənddən kəsdi, su aldılar, sudan kəsdi, Heç kəs dinmirdi, hamı bilirdi ki, Xıdır təzədən ev tikdirməlidi, maşın almalıdı. Bir zamanlar da elə beləcə demişdilər: Yetim oğlandı, işiniz yoxdu, qoyun dolansın"* (3, s. 414)

M.Süleymanlı yaradıcılığının əsas hissəsi XX əsrin ikinci yarısı ilə daha çox bağlıdır. Bu dövr o zamankı bütün ittifaq, eləcə də Azərbaycan ədəbiyyatı, axtarsan, elə mədəniyyətimizin bütün musiqi, incəsənət, teatr, rəssamlıq, heykəltaraşlıq və s. sahələri üçün də xüsusi tarixi bir mərhələdir. Bu mərhələni, yəni Böyük Vətən müharibəsindən sonrakı – 1960-90-cı illər dövrünü başqa sahələrdə olduğu kimi, yeni insan, mənəvi-kamillik mərhələsi də adlandıranlar çox olub. Həqiqətən də, bu, ədəbiyyat və mədəniyyət tarixində oyanış və sıçrayış mərhələsi adlandırılıb. Biz də həmin fikirdəyik. Bu fakt göstərmək kifayətdir ki, bu dövrdə nəinki ittifaq, eləcə də dünya ədəbiyyatı nümunələrindən heç də geri qalmayan, müasir Azərbaycan ədəbiyyatının qüdrətini göstərən sənət nümunələri yaranır. Bu mərhələ xalqımızın əzəli və əbədi azadlıq, müstəqillik, istiqlal, müstəmləkəçilikdən xilas olmaq arzularının davamlı mərhələsi kimi ədəbiyyat və mədəniyyətdə özünü göstərə bildi.

Poeziyanın, bədii nəsrin, dramaturgiya və teatrın, musiqi və oxu mədəniyyətinin və digər sahələrin də yeni-yeni nəsilləri yetişdi. Ədəbiyyatda, xüsusilə bədii nəsrdə bu nəslin görkəmli nümayəndələrindən biri də M.Süleymanlı oldu.

Müsbət ideal – yeni insan – mənəvi-əxlaqi kamillik ruhunda sürətlə inkişaf edən bu yaradıcılıq – sənət və sənətkarlıq xətti bu gün də öz sanbalını qoruyub-saxlamaq gücündədir. Bu dövr ədəbiyyatının göstəricilərindən biri də bu idi ki, uzun illər sosial qanunlar, sosialist realizminin təsiri ilə yığılıb qalan, şərhinə – tədqiqinə böyük ehtiyac olan məsələlər əsas mövzu kimi götürülür, onlar insan amili və dövr-zaman əhatəsində şərh olunurdu. M.Süleymanlı bu sahədə irəlidə gedən nasirlərdən idi. O, mövzularının yenliyi, müasirliyi ilə seçilirdi. Ədibin belə əsərlərindən biri də "Payız muştuluqları" hekayəsidir.

Hekayə müharibə mövzusuna həsr olunsa da, kənd adamlarının mənəvi-psixoloji əhval-ruhiyyəsi, həyat tərzi, məşğuliyyəti, yaşayışı, xüsusilə mədəni səviyyəsi əsərin həyat materialına daxil olan məsələlərdəndir. M.Süleymanlı bu hekayəsində tipik – real Azərbaycan kəndi, türk-müsəlman kənd obrazları və təbii kənd insanları yaratmışdı. Müharibə vaxtı kənd-kəsəkdə poçtalyon obrazı, daha çox dildə, ağızda səslənən, insanları yaxşı xəbərlərlə sevindirən, pis xəbər alanda ürəyi ağrıyan, həm ağır, həm də şən anlarla yaşayan, ömür sürən tipik insan faktıdır. Əyri Tapdıq adı ilə tanınan bu insan poçtalyon vəzifəsində işləyir. Yazıçı onun acılı-şirinli taleyini müharibənin ağır, dəhşətli anları ilə bağlı şərh edir. Arxa cəbhədə olsa da, Tapdıq daşıdığı vəzifəsi ilə sanki müharibədə, top-tüfəng altında yaşayır. M.Süleymanlı bu hekayədə güclü və yaddaqalan xarakter yaratmaqdan daha çox, düşündürücü və ciddi hadisə – əhvalat yaratmağa üstünlük vermişdir. Bu baxımdan, hekayənin Yasəmən, Bəyalı, şofer Vəli, Göyərçin, Cəmil, Mədət, İsmayıl, Hürü nənə, Cəfər müəllim və digər obrazları hadisələrin bətnində daha aydın görünürlər. Bunun əhəmiyyəti ondadır ki, hekayə adamlarının müasir şüur tərzi, daxili aləmi, fərdi hiss və düşüncələri, zamanın kədər və iztirabları, müasir şəraitin – müharibənin, ən əsası da "insan və zaman" münasibətlərinin fonunda açılır.

M.Süleymanlı əsl tipik Azərbaycan kəndi, müharibə şəraitində yaşayan kəndli obrazları yaratmışdır: *"1946-cı ilin aydın bir payız səhəri açılmışdı. İl bərəkətli gəlmişdi, torpağın dırnağının gözünə kimi var-dövlət idi. Uşaqların irzindən-rangindən bilinirdi ki, evlərdə buğda çörəyi bişir. Vaxtlı-vaxtında bacalar tüstülənirdi...*

*Axşam düşmüşdü. Dağlar yavaş-yavaş kölgələnirdi. inəklər mələyə-mələyə örüşdən qayıdırdı. Cəfər müəllim dikəlib pəncərədən kəndin bu axşamına baxırdı. Kənd elə həmin kənd idi. Sürülü, naxırlı, ilxılı. Bir az adamlar dəyişmişdi. Gəlinlərin səsi kişi səsinə bənzəyirdi, qızların əlləri codlaşmışdı, qabar bağlamışdı. Payız sarala-sarala düz həyətlərə gəlib çıxmışdı"* (1, s. 260, 267).

Bu bədii məlumatdan aydın olur ki, yazıçı əsl zəhmətkeş, elə, obaya, torpağa bağlı ümumiləşmiş, gərgin əməklə, zəhmətlə ömür sürən kənd və silsilə kənd insanları yaratmışdır.

Bu cəhəti xüsusi qeyd etmək lazımdır ki, M.Süleymanlının müharibə mövzusuna həsr etdiyi hekayələri bu mövzuda yazılan çoxsaylı əsərlərin heç birinə bənzəmir. İstər həyat materialı, insanları, hadisə, əhvalat və vəziyyətləri, istərsə də hadisələrə münasibət baxımından tam yeni, orijinal əsərlərdir. Onun əksər hekayələri sadə, aydın, kiçik mövzulara həsr olunsa da, bu adiliyin mahiyyəti ilə bəhs olunan illərin bir sıra aktual problemlərinə toxunulur. "Sığırçı Gülünün ala iti", "Yaşıl obaların toyu" hekayələri bu baxımdan bir sıra uğurları ilə yaddaqalandır. "Yaşıl obaların toyu"nda da ailə-məişət, adət-ənənələr və müasir kənd adamları yer alır. Hekayədə baş verən hadisələr milli toy adətləri, məişət məsələləri və bir çox obrazlarla müşayiət olunur.

M.Süleymanlı qələmə aldığı mövzuları bir neçə hekayə materialında şərh etməyə çalışsa da, onun maraqlandıran əsas cəhət – məqsəd problemin müasir tələb və prinsiplərə uyğun həlli məsələsidir. Odur ki, o bəzən

bir problemin həllinə iki və daha artıq hekayə həsr edir. Haqqında bəhs etdiyimiz dörd hekayə bu baxımdan iki problemə – mənəvi-əxlaqi kamillik və müharibə probleminə həsr olunmuşdur.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycan nəsri antologiyası. Beş cilddə, V cild, Bakı: Şərq-Qərb, 2006, 352 s.
2. Hüseynov A. Sənət meyarı. Bakı: Yazıçı, 1986, 316 s.
3. Süleymanlı M. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, 480 s.
4. Süleymanlı M. Şəhər toylarının səsi. Bakı: Gənclik, 1985, 244 s.



**Açar sözlər:** Mövlud Süleymanlı, nəsr, hekayə, yazıçı və zaman

**Ключевые слова:** Мовлуд Сулейманлы, проза, рассказ, писатель и время

**Keywords:** Movlud Suleymanli, prose, story, writer and time


**Xülasə**


Son dərəcə müasir, məsuliyyətli sənətkarlardan olan M.Süleymanlı XX əsr bədii nəsrinin inkişafında nümunəvi əsərləri ilə tələbkar oxucuların məhəbbətini qazanmışdır. İlk əsərlərindən bədii nəsrin hüdud və imkanlarını nəzərə alan, tələb və prinsiplərinə hörmətlə yanaşan M.Süleymanlı hekayədən povestə, povestdən romana məntiqi bir yaradıcılıq yolu keçmiş, yaratdığı bədii nəsr nümunələri ilə "yazıçı və zaman", "sənətkar və vətəndaşlıq borcu" prinsiplərinə sadiq qalmışdır.

M.Süleymanlı müxtəlif mövzularda yazmasından asılı olmayaraq, kiçik hekayələrindən romanlarına qədər təbiət – insan – zaman, mənəvi-əxlaqi kamillik və müsbət ideal probleminin şərhinə üstünlük vermiş, insanı – zamanı, ən kiçik əşya – detalı belə, təbiət və daşlaşmış milli əxlaqi və tərbiyə normaları əhatəsində ümumiləşdirmiş, "həyat və bədii həqiqət" prinsipləri əsasında yüksək bədiiliklə həllinə nail ola bilmişdir.

Belə sənətkarlıq və vətəndaşlıq faktlarını əsaslandıran ədibin bədii sənət nümunələri çoxdur. Əlbəttə, bu yaradıcılıq prosesini M.Süleymanlı kiçik hekayələrdən başlayaraq romanlarına qədər davam etdirir. Onun "Qar", "Yanğın", "Payız muştuluqları", "Yaşıl obaların toyu" və digər hekayələri, "Duzsuzluq", "Dəyirman", "Ot", "Noxtalı adam", "Dağlarda şeytan" povestləri, "Ceviz qurdu", "Səs" romanları bu fikirləri birmənalı şəkildə təsdiq edir.


**ЧЕТЫРЕ РАССКАЗА – ДВЕ ПРОБЛЕМЫ**

**Резюме**


Мовлуд Сулейманлы, один из чрезвычайно современных, ответственных мастеров завоевал любовь читателей с образцовыми произведениями в развитии художественной прозы. М.Сулейманлы, который рассматривал границы искусства и принципы художественного проза, которые были логическим творческим способом творчества и принципов, был привержен принципам «писателя и времени», «мастера и гражданского долга» из этой истории.

М.Сулейманлы, независимо от его творчества на различные темы, от рассказов до романов, отдавал предпочтение трактовке проблемы природа – человек – время, духовно-нравственному совершенству и положительному идеалу, обобщил человека – время, даже малейшую вещь – деталь в пределах природы и окаменелых национальных нравственных и воспитательных норм, и сумел решить ее с высоким артистизмом, основанным на принципах «жизни и художественной правды».

Есть много таких артефактов и узоров художественного искусства. Конечно, этот творческий процесс продолжает начинаться с небольших рассказов от М.Сулейманлы. Его «Снег», «Пожар», «Сюрпризы осени», «Свадьба зеленых отселок» и другие рассказы, повесты – «Бездны», «Мельница», «Трава», «Обузданный человек», «Дьявол в горах», романы – «Ореховый червь», «Голос» однозначно подтверждают эти мысли.


**FOUR STORİES – TWO PROBLEMS**

**Summary**


Movlud Suleymanli, one of the extremely modern, responsible masters won the love of readers with exemplary works in the development of artistic prose. M. Suleymanli, who considered the boundaries of art and principles of artistic prose, which were a logical creative way of creativity and principles, was committed to the principles of "writer and time", "master and civic duty" from this story.

M.Suleymanli, regardless of his work on various topics, from short stories to novels, gave preference to the interpretation of the problem of nature – man – time, spiritual and moral perfection and a positive ideal, generalized man – time, even the smallest thing – a detail within the limits of nature and fossilized national moral and educational norms, and managed to solve it with high artistry, based on the principles of "life and artistic truth."

There are many such artifacts and patterns of art. Of course, this creative process continues to begin with small stories from M. Suleymanli. His "Snow", "Fire", "Surprises of the autumn", "The wedding of the green villages" and other stories, the narratives – "Abyss", "Mill", "Grass", "Curved man", "Devil in the mountains", the novels – "Walnut worm", "Voice" unequivocally confirm these thoughts.



**Rəyçi:** Filologiya elmləri doktoru, professor Almaz Məmmədova